# AZƏRBAYCAN RESPUBLİKASI NEFT FONDUNUN
# NEFT KONTRAKTLARI DEPARTAMENTİ HAQQINDA
# Ə S A S N A M Ə

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra –Fond) Neft kontraktları departamenti (bundan sonra – Departament) Fondun aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"ni, Fondun əmr və sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Fondun digər struktur bölmələri ilə əlaqəli şəkildə fəaliyyət göstərir.

1.4. Əsasnamədə aşağıdakı əsas termin və anlayışlar istifadə olunmuşdur:

**Akrhesabı ödənişlər** – Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar xarici sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün dövlətə ödənilən vəsaitlərdir.

**Bonuslar** - Hasilatın Pay Bölgüsü sazişlərinin imzalanması və ya icrası ilə bağlı dövlətə ödənilən mükafatlardır.

**"Hasilatin pay bölgüsü" sazişi (HPBS)** – Azərbaycan Respublikasında fəaliyyət göstərən, dövlət ilə xarici sərmayəçilər arasında bağlanmış neftin və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair, qanun qüvvəli sazişlərdir.

**Mənfəət karbohidrogenləri** – HPBS-lərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının payına düşən xam nefti və qazı.

**"PLATTS"-** dünyanın müxtəlif bazarlarında satılan neftin, təbii qazın, neft-kimya məhsulların, sənaye metalların qiymətlərin kotirovkalarının dərcində ixtisaslaşmış informasiya agentliyi.

**Tranzit haqqı -** neftin Azərbaycan Respublikasının ərazisi ilə ixrac boru kəməri vasitəsi ilə ötürülməsi üçün edilən ödənişlərdir.

## 2. DEPARTAMENTİN MƏQSƏDİ

Azərbaycan Respublikası ilə xarici sərmayəçilər arasında bağlanmış neftin və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə və nəqlinə dair sazişlərdə habelə Fond tərəfindən maliyyələşdirilən strateji əhəmiyyətli enerji layihələrində Azərbaycan Respublikasının maraqlarının qorunmasının təmin edilməsindən ibarətdir.

## 3. DEPARTAMENTİN FUNKSİYALARI

Departamentin funksiyaları aşağıdakılardan ibarətdir:

3.1. Azərbaycan Respublikası ilə xarici sərmayəçilər arasında bağlanmış neftin və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə və nəqlinə dair sazişlərin həyata keçirilməsindən əldə edilən gəlirlərə, o cümlədən, Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlərə, neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı dövlətlə sərmayəçilər tərəfindən ödənilən bonuslara, karbohidrogen ehtiyyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün dövlətə ödənilən akrhesabı ödənişlərə, neftin və qazın ixrac boru kəmərləri vasitəsi ilə ötürülməsindən əldə edilən gəlirlərə, həmçinin Fond tərəfindən maliyyələşdirilən strateji əhəmiyyətli enerji layihələrində Azərbaycan Respublikasına məxsus paylar üzrə əldə olunan dividendlərə nəzarətin həyata keçirilməsi;

3.2. HPBS və nəqliyyat sazişləri çərçivəsində, habelə Fond tərəfindən maliyyələşdirilən strateji əhəmiyyətli enerji layihələrində Azərbaycan Respublikasına mənsub paylar üzrə ümumi nəzarəti təmin etmək məqsədi ilə idarəetmədə iştirak funksiyasının təmin olunması.

## 4. DEPARTAMENTİN VƏZİFƏLƏRİ

Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaları həyata keçirmək üçün aşağıdakı vəzifələri yerinə yetirir:

4.1. Sazişlərin və onlara aid əlavə və dəyişikliklərin məlumat bazasının yaradılması;

4.2. HPBS və nəqliyyat sazişləri çərçivəsində Azərbaycan Respublikasının payına düşən mənfəət karbohidrogenlərinin satışından əldə olunan gəlirlərə, ödənilən bonus və akrhesabı ödənişlərinə, tranzit gəlirinə və Fond tərəfindən maliyyələşdirilən strateji əhəmiyyətli enerji layihələrində Azərbaycan Respublikasına məxsus paylar üzrə əldə olunan dividendlərə nəzarət sisteminin yaradılması;

4.3. HPBS üzrə və Fond tərəfindən maliyyələşdirilən strateji əhəmiyyətli enerji layihələrində Azərbaycan Respublikasına məxsus paylar üzrə əldə olunacaq gəlirlər üzrə maliyyə modelləri əsasında proqnozlarının hazırlanması;

4.4. HPBS, nəqliyyat sazişlərinin və Fond tərəfindən maliyyələşdirilən strateji əhəmiyyətli enerji layihələrinin əsas kommersiya göstəricilərinin və Azərbaycan Respublikasının payına düşən gəlirlərin təhlili və müvafiq hesabatların hazırlanması;

4.5. HPBS üzrə, mənfəətin bölüşdürülməsi məqsədi ilə, Xalis İxrac Dəyəri (XİD) hesabatların yoxlanması və təsdiq edilməsi;

4.6. HPBS üzrə karbohidrogenlərin satışından əldə olunan mənfəətin dövlət və sərmayəçi arasında bölüşdürülməsi məqsədi ilə Neftin Birgə Satışı barədə Sazişlərin hazırlanması və onların icrasına nəzarət edilməsi;

4.7. HPBS üzrə sərmayəçilər qarşısında mənfəət vergisinin dövlətə ödənilməsi öhdəliyinin icra edilməsi prosedurunun həyata keçirilməsi;

4.8. Nəqliyyat sazişləri üzrə Azərbaycan Respublikasının payına aid olan nəqletmə xərclərinin ödənilməsi prosedurunun həyata keçirilməsi;

4.9. HPBS çərçivəsində, dövlətin payına düşən mənfəət karbohidrogenlərin satış partiyalarının sistemə daxil edilməsi, PLATTS agentliyi tərəfindən təqdim olunan məlumat əsasında alternativ bazarlarda satış qiymətinin analizinin aparılması və müvafiq hesabatların hazırlanması;

4.10. HPBS üzrə və Fond tərəfindən maliyyələşdirilən strateji əhəmiyyətli enerji layihələrində büdcə və İllik İş Proqramının təsdiq edilməsində iştirak və icra olunmasına nəzarət;

4.11. HPBS üzrə və Fond tərəfindən maliyyələşdirilən strateji əhəmiyyətli enerji layihələrində dövlət maraqlarının təmin olunması məqsədi ilə Dövlət Komissiyalarında, Rəhbər Komitələrdə, Müşahidə Şuralarında, İşçi Qruplarda və digər iclaslarda Fondun təmsil edilməsi;

4.12. Büdcə, proqnozlaşdırma və layihələr departamenti ilə birlikdə strateji əhəmiyyətli enerji layihələrinin maliyyələşdirmə mexanizmi və vəsaitlərin istifadəsi üzrə monitorinq sisteminin yaradılması və müvafiq hesabatların hazırlanması;

4.13. HPBS və Strateji əhəmiyyətli enerji layihələri üzrə, lazımi məlumatların əldə olunması məqsədi ilə müvafiq sorğuların göndərilməsi.

## 5. DEPARTAMENTİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

5.1. Departamentin təşkilati strukturu və işçilərinin sayı Fondun İcraçı direktoru tərəfindən müəyyən və təsdiq edilir.

5.2. Departamentin fəaliyyətinə Departamentin direktoru rəhbərlik edir. Departamentin direktoru Fondun İcraçı direktoru tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir. Departamentin direktoru Departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Departamentin direktoru:

5.3.1. Tabeliyində olan işçilər arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

5.3.2. Departamentin fəaliyyətinə dair mühüm məsələlər barədə məlumatı Fondun rəhbərliyinə təqdim edir;

5.3.3. Departamentin işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Fondun rəhbərliyinə təqdimatlar verir;

5.3.4. Daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.3.5. Departamentdə kargüzarlıq işlərinin aparılmasını təmin edir;

5.3.6. Departamenti təmsil edir.

5.4. Departamentin direktoru olmadığı halda onun vəzifələrinin yerinə yetirilməsi departamentin işçilərinin birinə həvalə olunur.

5.5. Departamentin işçiləri İcraçı direktor tərəfindən vəzifəyə təyin və azad edilir.